# Bakı Bələdiyyə Teatrınında yeni Nəsimi obrazı

**Xalq artistləri Amaliya Pənahova və Yusif Muxtarovun 27 il bundan əvvəl yaratdıqları Bakı Bələdiyyə Teatrı bu il noyabr ayının 12-də Akademik Milli Dram Teatrının səhnəsində "İmadəddin Nəsimi" tamaşası ilə tamaşaçıların görüşünə gəldi.**



Bir neçə gün əvvəl, daha dəqiq desək, noyabr ayının 7-də Bələdiyyə Teatrının 27 yaşı tamam olmuş, noyabr ayının 8-də isə mərhum sənətkarımız Amaliya xanımın dünyasını dəyişməsinin bir ili və qəbirüstü abidəsinin açılışı oldu. Artıq bir ildir ki, Amaliya xanım həyatda yoxdur. İlk dəfə idi ki, Bələdiyyə Teatrının kollektivi yeni tamaşasını Amaliya xanımsız nümayiş etdirirdi. Nə etməli, bu dünyada heç kim əbədi deyil. Yeganə təsəllimiz odur ki, görkəmli sənətkarımızın yaratdığı Bakı Bələdiyyə Teatrı bizimlədir və hər zaman fərqli tamaşaları ilə tamaşaçıları təəccübləndirib, sevindirə bilir. Deməliyik ki, Bakı Bələdiyyə Teatrına rəhmətlik Amaliya xanım bacarıqlı yaradıcı kollektiv toplayaraq 27 il boyunca arzusunda olduğu teatrı yaradıb. 27 ildir ki, teatrın hazırladığı hər bir tamaşa maraqla qarşılanır və onlara fərqli münasibətlər olur. Deməliyik ki, "İmadəddin Nəsimi" tamaşası ölkə rəhbəri cənab İlham Əliyevin "İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd olunması ilə bağlı" 15 noyabr 2018-ci il Sərəncamına müvafiq olaraq hazırlanıb. İmadəddin Nəsimi şəxsiyyəti hər zaman oxucular, tədqiqatçılar və sənət adamları üçün maraqlı olub. 1974-cü ildə görkəmli sənətkarlarımız İsa Hüseynovun (Muğanna) yazıçılıq, Həsən Seyidbəylinin rejissorluq və Rasim Balayevin aktyorluq qüdrəti ilə möhtəşəm Nəsiminin kino obrazı tamaşaçılara bəxş edildi. İmadəddin Nəsimi obrazının təqdimatından 45 illik bir dövr keçib. Dövr və zövqlər dəyişib. Təbii ki, İmadəddin Nəsimi obrazına yeni baxış olmalıdır. Dövr bunu tələb edir. Məhz bu səbəbdən Bakı Bələdiyyə Teatrının dahi mütəfəkkirə həsr etdiyi tamaşanı alqışlayır, cəsarətli addım hesab edirik.

Quruluşçu rejissor, Xalq artisti Mərahim Fərzəlibəyov "İmadəddin Nəsimi" tamaşasının janrını fəlsəfi dram adlandırıb. Xalq yazıçısı İsa Hüseynovun (Muğanna) "Məşhər" romanı əsasında səhnə versiyasının müəllifi dramaturq və teatrşünas Çingiz Ələsgərlidir. Elə ilk baxışdan əsərin süjet xətti diqqətimizi cəlb etdi desək heç də səhv etmərik. İmadəddin Nəsimi əqidəsi və amalı uğrunda canını fəda etmiş təfəkkür sahibidir. Nəsimi əsrlər boyu möhtəşəm ədəbi irsi, amalı uğrunda fədakar mübarizəsi, dəyanəti və əqidəsi uğrunda şəhidlik zirvəsinə yüksəlməsi ilə adını Yaxın və Orta Şərq, o cümlədən türkdilli xalqların ədəbiyyatında əbədiləşdirmiş və dünya şöhrəti qazanmışdır. Əqidələri uğrunda canlarını fəda etmiş görkəmli şəxsiyyətlər sırasında İmadəddin Nəsiminin adı xüsusi yer tutur desək, heç də səhv etmərik. 680-ci ildə İmam Hüseynin, 822-ci ildə Həllac Mənsurun, 1394-cü ildə Fəzlullah Nəiminin amalları uğrunda fədakarcasına ölümlərindən sonra İmadəddin Nəsiminin 1417-ci ildə Hələbdə vəhşicəsinə qətlə yetirilməsi, ideya və əqidəsi uğrunda şəhidliyi, dünyada mislibərabəri olmayan cəsarət nümunəsi kimi artıq əfsanəyə çevrilmişdir. Bakı Bələdiyyə Teatrı Nəsimi haqqında 1974-cü ildə yaradılmış yüksək peşəkar səviyyəli bədii filmdən 45 il sonra bu mövzuya müraciət edib.

Etiraf etməliyik ki, Nəsiminin səhnə obrazını yaratmaq çətin, çətin olduğu qədər də məsuliyyətlidir. Ancaq müasir düşüncə tərzinə yaxın Nəsimi obrazını səhnədə canlandırmaqla teatr öz missiyasını yerinə yetirməyə çalışıb. Yaradıcı heyət kino versiyasını təkrarlamadan, tam yeni bir Nəsimi obrazını təqdim etməyi qarşısına məqsəd qoyur. Tam məsuliyyətlə deyə bilərik ki, teatr bu işin öhdəsindən gələrək mürəkkəb və ziddiyyətli Nəsimi obrazını yaratmağa nail ola bilib.

Tamaşa boyu biz Tural Əhmədin təqdimatında ilahi məhəbbətlə sevən Nəsimi ilə üzləşirik və təbii ki, onun sevgisinə inanırıq. İmadəddin Nəsiminin sevdiyi qadın Hüsniyyə Mürvətovanın təsvir etdiyi Fatmadır. "Nəsimi" filmində bu obrazı Xalidə Quliyeva yaradıb. Onun yaratdığı Fatma dərviş geyimi və qısa saçları ilə yaddaşlara əbədi həkk olunub. Lakin filmdən fərqli olaraq, "İmadəddin Nəsimi" tamaşasında Fatma dərviş geyimində deyil, həmin dövrün xanımlarına xas olan gözəl və bəzəkli paltardadır. Yəqin ki, yaradıcı heyət, başda quruluşçu rejissor və dramaturq olaraq elə düşünüblər ki, Nəsimi kimi gözəlliklər aşiqi, incə qəlbli şair ancaq belə bir gözəl xanımı sevə bilər. Söz yox ki, biz filmdəki Fatma obrazına kölgə salmaq fikrində deyilik. Həsən Seyidbəylinin "Nəsimi" filmi milli kino tariximizin qızıl səhifələrindən biridir. Sadəcə olaraq, bu yeni, fərqli və müasir bir yanaşma hesab olunmalıdır. Fatma-Hüsniyyə Mürvətovanın ifasında dramatik ideyaya və rejissor yozumuna tam uyğun təsvir və təqdimatdır. Aktrisa obrazın mənəvi həyatını, xarici və daxili portret cizgilərinin vəhdətini nümayiş etdirir. Sevən hər iki aşiq obrazlarını - Tural Əhməd və Hüsniyyə Mürvətova yüksək peşəkarlıq, bacarıq və psixoloji oyun tərzi ilə nümayiş etdirirlər.

Tural Əhmədin İmadəddin Nəsimi, Hüsniyyə Mürvətovanın Fatma, Aydın Əliyevin Fəzlullah Nəimi, Mehman Abdullayevin Yusif obrazları tamaşanın ümumi ideya həllinə və janrın tələblərinə xas aktyor oyun tərzi nümayiş etdirirlər. Etiraf etməliyik ki, aktyorların ifa tərzləri dəqiq və mənalıdır. Əmir Teymur qarşısında dayanan cavanın Nəsimi olduğuna inana bilmir. Dünyanı lərzəyə salan Əmir Teymurun gözlərində təəccüb və maraq var. Xaqan hansısa bir şairin cəsarət edib onun hüzuruna gəlməyinə hələ də inana bilmir. Nəsimi poeziyası, amalı və əqidəsi ilə Əmir Teymurun özünü belə fikrindən döndərməyə qadirdir. Əmir Teymur müdrik dövlət başçısı, igid və qorxmaz sərkərdədir. O, İmadəddin Nəsiminin nitqini, şeirini və cəsarətini bəyənib. Müəlliflər bu yolla ağlın, düşüncənin, nadanlıq, hakimiyyət və var-dövlət üzərində qələbəsini göstərmək istəmişlər. İlqar Musayevin ifasında Əmir Teymurun hərəkətləri qəzəb və nifrət saçır. Lakin bizə elə gəlir ki, aktyor Əmir Teymurun qəzəb və nifrətini Nəsimi ilə görüşün sonunda bir qədər yumşaltsa, daha yaxşı qəbul olunar. Şikəstlik görüntüsü də, bizə elə gəlir ki, bir qədər çoxdur. İfrata varmaq olmaz. Aktyorun obrazın xarici rəsmində eybəcərliyi artırmaq məqsədi ilə tez-tez belini əyməyi də istənilən effekti vermir. Aktyor Əmir Teymurun fiziki şikəstliyini imkan daxilində sezdirilməməli, xarici görünüşün çatışmazlığını eybəcər formada verməməlidir. Əmir Teymur heç bir döyüşündə məğlubiyyət bilməyən cahangirdir. O, ağıllı, dərrakəli, cəsarətli dövlət başçısı və qüdrətli cahangirdir. Dünyanı fəth edən hansı sərkərdə qan töküb, can almayıb? Onun mənfi cəhətləri olduğu kimi, müsbət cəhətləri də var. Onun sənətkarlara verdiyi qiymət, Səmərqənd və Buxara kimi muzey şəhərlərin yaradılması Əmir Teymurun müsbət cəhətlərindən xəbər verir. Aktyor mənfi obrazın rəsmində müsbət tərəfləri tapıb oynasaydı, daha maraqlı olardı.

Tamaşada Fatma obrazı ilə bərabər, daha iki qadın obrazı mükəmməlliyi ilə bizi məftun etməyə bilmir. Əzra-Ülviyyə Rza, Zəhra-Zülfiyyə Qurbanova maraqlı, baxımlı və cəlbedici ifa nümayiş etdirirlər. Hər iki gənc qadın Nəsimi vurğunudurlar. Ülviyyə Rzanın-Əzra obrazı dramatik ideyaya və rejissor yozumuna uyğun, xarici və daxili rəssam təsvirinin vəhdətində təqdim edilir. Aktrisa obrazın hərəkət-mizan toplusunun mükəmməlliyini yaradır. Aktrisa sanki obrazın mətninə, belə demək mümkünsə, hiss və həyəcan əlavə edir. Ülviyyə Rza Əzra obrazının xarakter zənginliyini sanki mərhələlərdə tamaşaçıya təqdim edir. Aktrisa obrazın təsvirində daxili və xarici rəsmin səmimi, parlaq və dəqiq vəhdətini nümayiş etdirir. Rejissor heykəltəraş kimi material üzərində necə işləyirsə, aktyor da material üzərində işləyib, cansız mətnin canlılığına nail olmalıdır. Aktrisa obrazın mətnindəki sözlərin ifadə etdiyi əməl xəttinin dəqiqliyini oynayır desək, heç də səhv etmərik. Zülfiyyə Qurbanovanın təsvir etdiyi Zəhra obrazı da maraqlıdır. Əzra və Zəhra sanki bir medalın iki üzüdür. Aktrisaların oyun tərzində həm oxşarlıq, həm də fərqlilik var. Deyirlər ki, insan danışanda, artıq özünü ifadə edir. Ancaq aktyor ifasında tək sözlə, nitqlə iş bitmir, nitqi hərəkət toplusu tarazlamalıdır. Zülfiyyə Qurbanovanın təqdimatında Zəhranın həyat hekayəsi ilə qarşılaşırıq. Təsvirin dəqiqliyi və orijinallığı göz oxşayır. Aktrisa danışıq tərzinə, mizanlarına, mimika və plastik rəsmdən yaranan jestlərinə dərin məntiqi məna da əlavə edib, obrazı olduğundan daha baxımlı edir. Rafiq İbrahimovun İbrahim şah obrazı haqqında fikirlərimizi diqqətə çatdırmışıqsa, Gövhərşah obrazı haqqında da danışmalıyıq. Aktyor Toğrul Rza şah oğlunun tamlıqda dəqiq təsvirini həm hərəkətlərin, həm danışıq tərzinin, həm intonasiyanın, həm mimika və jestlərin vəhdətində təsvir və təqdim etməyə çalışır. Ancaq aktyorun bəzən hərəkətlərinə tələskənlik qatmağı, bizə elə gəlir ki, şah oğluna yaraşmayan hərəkətlər kimi qəbul olunur.

Qeydlərimizin aktyor dostumuz tərəfindən səmimi qəbul ediləcəyinə əminik. Süjet xəttində daha iki obrazın ifa tərzi haqqında qeydlərimizi bildirmək istəyirik. Söhbət millətini satmış iki satqın - İsmayıl Atakişiyevin - Şeyx Əzəm və Əhməd Salahovun - Həmzə obrazlarından gedir. Satqının nə vətəni, nə də milləti olur. Satqın elə satqındır.Satqınlar həmişə olub, həmişə də olacaq. İsmayıl Atakişiyevin təsvirində biz Şeyx Əzəmin daim dəyişən, cilddən-cildə girən siması ilə qarşılaşırıq. Vəzifə və var-dövlət naminə millətini satan satqın obrazını aktyor hərəkət və jestlərdə, qarşılaşdığı insana uyğun danışıq tərzinin dəyişməsində hiss edirik. Deyirlər, aktyor sənəti təsviri sənətlə poeziyanın qarışığı kimi qəbul olunur. Deməli, obrazın təsvirində rənglərdən qədərində istifadə etmək lazımdır ki, tamaşaçı canlı rəsm işini poeziya nümunəsi kimi qəbul edə bilsin. İsmayıl Atakişiyevin Şeyx Əzəm obrazı tamlıqda qəbul olunur. Onun hürufiləri və xüsusən İmadəddin Nəsimini görəndə özündən çıxması, Əmir Teymur adı gələndə ipəyə dönməsi, mizanlarda, danışıq tərzi və intonasiyalarda, mimika və gözlərin ifadəsində tam təbii və inandırıcıdır. Aktyor pauzalardan da yerində və bacarıqla istifadə edə bilir. Əhməd Salahovun Həmzə obrazı sanki Şeyx Əzəmin kiçildilmiş versiyasıdır. Bəlkə də, Şeyx Əzəm satqınlığına elə Həmzə kimi başlayıb, tədricən Şeyx Əzəm olub. Nə bilmək olar? Həyat qəribəliklərlə doludur. Əhməd Salahovun təsvirində Həmzə obrazı Şeyx Əzəmlə müqayisədə satqın və yaltaq kimi, daha çox canfəşanlıq edir, özünü gözə soxur ki, nəsə qazana bilsin. Hərəkətlərdə tələskənlik, yaltaqlıq və rəzillik sezilir. Bu tamlıqda obrazın xarakterinə uyğundur. Aktyor obrazın xarici təsvirindən asanlıqla daxili rəsmə keçir. Qarşımızda bütün dövrlər üçün qəbul edilən, ancaq cildini dəyişən, satqın və yaltaq obrazı durub. Bütün obrazlar qalereyası haqqında qeydlərimizi bildirdik. Ancaq dramaturq, quruluşçu rejissor, rəssam və musiqi tərtibatı haqqında danışmadıq. Məgər danışmadıq? Əslində, bütün tamaşa və aktyor ifaları haqqında olan qeydlərimiz, dramaturq, quruluşçu rəssam, quruluşçu rejissor və musiqi tərtibatçısının işinə verilən dəyər hesab olunmalıdır. Ancaq, yaradıcı heyətin dörd üzvü haqqında düşündüklərimizi qısa da olsa hörmətli oxucuların diqqətinə çatdırmaq istəyirik. Dramatik mətn, qeyd etdiyimiz kimi, dramaturq Çingiz Ələsgərli tərəfindən işlənib. Süjet xətti İsa Muğannanın "Məşhər" romanı əsasında olsa da, dramaturq improvizələr edərək tam müstəqil dram əsəri yaradıb. Dramaturq süjet xəttində xarici və daxili hərəkətin vəhdətdə təsvirinə nail ola bilib. Məhz bu səbəbdən səhnədən-səhnəyə obrazların xarakteri tədricən gözümüz qarşısında dəyişir.İmadəddin Nəsimi əsərin qəhrəmanıdır. Onun həyatı, məhəbbəti, amalı uğrunda dönməzliyi rəngarəng və inandırıcı cizgilərdə verilib. Xırda qeydlərin nəzərə alınacağına ümid edirik. Əsər həm Nəsiminin, həm də ümumilikdə, digər obrazların İbrahim şahın, Gövhərşahın, Fəzlullah Nəiminin, Fatmanın, Zəhranın, Əzranın, Şeyx Əzəmin, Yusifin və Həmzənin hekayəsidir. Mətn rejissor Mərahim Fərzəlibəyov tərəfindən tamlıqda qəbul edilərək, səhnə versiyasında dəqiq bədii ifadəsini tapır. Onun aktyorlar üçün düşündüyü mizansəhnələrin hər biri tamlığı və ifadə tərzinin rəngarəngliyi ilə göz oxşayır. Rejissor tamaşanı ardıcıllaşan hissələrə bölünmüş kompozisiyada simmetrik-həndəsi dəqiqliklə,bədii məntiqə hesablanmış dəqiq mizanlarda həll edir. Rejissor rəssam kimi,əsəri plastik-məntiqi ardıcıllıqla obrazların mizan hərəkət tablosunda əks etdirir. Mərahim Fərzəlibəyov tamaşa üçün konkret bədii ifadə və təzahür formasını şərti məkan, musiqi və aktyor oyun tərzinin vəhdətinə nail olur. Mərahim Fərzəlibəyovun tamaşa bütövlüyü üçün quruluşçu rəssamın dramatik mətnə, ideyaya uyğun tərtibat və kostyum həlli də maraqlı və yerindədir.

Məqalədə qeyd etdiyimiz kimi, Nəsiminin qəzəlləri çap olunmuş saralmış kitab səhifələrindən dahi şairin rəsmi sanki bizi o dövrə aparır. Musiqi tərtibatının müəllifi Elnur Əliyev də quruluşçu rejissor Mərahim Fərzəlibəyovun göstərişi ilə tamaşanın tamlığına xidmət edən musiqi parçaları nümayiş etdirir. Onun musiqi parçaları tamaşanı daha baxımlı edir.

Tamaşanın finalı haqqında xüsusi danışmaq istəyirik. İmadəddin Nəsimi şəxsiyyəti və poeziyası ilə xalqımızın qəlbində əbədi yaşayır. Yaradıcı heyət və quruluşçu rejissor tamaşanın finalını heç də Nəsiminin qətli ilə bitirmir. Əksinə, Nəsimini əbədiyyətə qovuşdurur. Beləliklə,tamaşa bitir və Nəsimi səhnənin dərinliyinə doğru gedərək, onun üçün hazırlanmış pyedestala-pillələrə qalxa-raq, Yer kürəsini qolları arasına alır və heykəlləşir.

Bakı Bələdiyyə Teatrının "İmadəddin Nəsimi" tamaşasını görkəmli sənətkarımız Amaliya xanım Pənahovanın ruhuna dəyərli töhfə hesab edirik.

✍ **Aydın Ağazadə,**
*Teatrşünas*